Azərbaycan Respublikası

Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti başçısının

# SƏRƏNCAMI

№ 32 «04» 03 2020-ci il

**Ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçuların mənzil sahəsinə ehtiyacı olan qismində uçota alınmalarını və onlara müvəqqəti mənzil kirayəsi xərclərinin ödənilməsini təmin etmək məqsədilə Binəqədi Rayonu İcra Hakimiyyəti başçısı yanında Komissiyanın yaradılması haqqında**

"Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası qanununun və Azərbaycan Respublikasının Mənzil Məcəlləsinin tələblərinə əsasən ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçuların mənzil sahəsinə ehtiyacı olan qismində uçota alınmalarını və onlara müvəqqəti mənzil kirayəsi xərclərinin ödənilməsini təmin etmək məqsədilə "Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə"nin 3.9.6-cı və 6.8-ci maddələrini rəhbər tutaraq

**qərara alıram:**

1. Binəqədi Rayonu İcra Hakimiyyəti başçısı yanında aşağıdakı tərkibdə Komissiya yaradılsın:

**Komissiyanın sədri:**

İlqar Süleymanov – RİH başçısının birinci müavini

**Komissiyanın üzvləri:**

Yunis Hüseynov - RİH başçısı Aparatının Hüquq şöbəsinin müdiri;

Vüsalə Eyvazova - RİH başçısı Aparatının Hüquq şöbəsinin məsləhətçisi;

Sabir Əliyev - RİH başçısı Aparatının Sənədlərlə və vətəndaşların

müraciətləri ilə iş şöbəsinin müdiri

| | | |
|---|---|---|
| Nicat Həsənov | - | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsinin rəisi |
| Natiq Qurbanov | - | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsinin Səfərbərlik hazırlığı və səfərbərlik şöbəsinin müfəttişi |
| Hicran Dadaşova | - | RİH başçısı Aparatının baş mühasibi-sektor müdiri |

2. Komissiyaya tapşırılsın ki, qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçuların Binəqədi Rayonu İcra Hakimiyyətində mənzil sahəsinə ehtiyacı olan qismində uçota alınmalarını və onlara müvəqqəti mənzil kirayəsi xərclərinin ödənilməsini təmin etsinlər.

3. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Elxan Allahverdiyev

№ 26

***ƏSLİ İLƏ DÜZDÜR:***

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** Sabir Əliyev

CamScanner ile tarandı